**LƏMAN QURBANOVA**
**Bakı Dövlət Universiteti**
**Zahid Xəlilov23**
**leman_qurbanova_2015@mail.ru**

# YAZIÇILAR İNTİHAR LABİRİNTİNDƏ

## Xülasə

İntihar şüurlu, qəsdən və tələsik şəkildə özünü həyatdan məhrum etmə aktıdır. Depressiya, bipolar pozuqluq, şəxsiyyət pozuqluqları, orgiastik maddələrdən asılılıq da daxil olmaqla, ruhi pozuqluqlar intihar aktının baş verməsi üçün risk faktorlarıdır. Bəzi intihar hadisələri isə maliyyə çətinliklərinin, ictimai münasibətlərdəki problem və ya çətinliklərin, intihara sövq edəcək zorakılığın gətirdiyi stress səbəbiylə də baş verir. İntihar etmə riski xüsusilə də, daha əvvəl intihara cəhd etmişlər arasında üstünlük təşkil edir. İntihar sosioloji, bioloji, psixoloji və fəlsəfi bir fenomendir, eyni zamanda bədii düşüncəyə əsaslanan ədəbi bir fenomendir. İntihar qədim dövrdən günümüzə qədər ədəbiyyatın əsas mövzularından biridir. Tədqiqatlar göstərir ki, yazıçılar digər insanlara nisbətən iki dəfə daha çox intihara meyllidirlər. Yaradıcılıq və ruhi xəstəliklər arasındakı əlaqələr olduqca geniş müzakirə mövzusudur və məlum olduğu ki, ədəbi dünya öz yarıdıcı nümayəndələrinin önünəqəsdinə, intiharına görə böyük itkilər vermişdir. Təsadüfi deyildir ki, intihar etmiş insan qrupları arasında yazıçılar çoxluq təşkil edir, məsələn, Cek London, S. Yesenin, Yukio Misima, rus ədəbiyyatının tanınan simalarından biri olan Marina Svetayeva, İsveçrə şairəsi Karin Boye, çox fərqli intihar növü seçən ingilis yazıçısı Virciniya Vulf, XX əsr amerika poeziyasının ən qalmaqallı və ən qəribə fiqurlarından biri olan Silvia Plat, E.Hemenquey, Stevan Sveyq, Mayakovski, Maykl Doris, Harri Kodil, Nil Kassidi və b. Belə ki, suisid hər şeydən öncə yaradıcı-fəlsəfi fikrin məhsuludur.

**Açar sözlər:** intihar və yazıçılar, fəlsəfi intihar, absurd və ölüm.

Labirint - çıxılması çətin, dolanbac və dolaşıq yolları olan böyük tikili
İntihar - mürəkkəb və qarışıq düşüncələrdən hörülmüş və yeganə çıxışı ölüm olan labirint...

Müasir dünyada getdikcə daha çox aktuallığa malik olan sosioneqativ davranış aktlarından biri intihardır. İntihar insanın şəxsi problemi deyildir. İstisna halları nəzərə almasaq, əminliklə demək olar ki, intihar sivilizasiyanın, cəmiyyətin, cəmiyyətdə yaşayan mənəvi boşluğun, insanların özgələşməsinin, soyuqqanlılığının, diqqətsizliyinin, insanların bir-birinə dayaq durmamasının yaratdığı problemdir. Suisidentlər (intihar edənlər) obyektiv və ya subyektiv səbəblərə görə daxili hormoniyasını itirmiş və əldə olunan disharmoniya ilə yaşaya bilməyən insanlardır.

İntihar digər tərəfdən insanın şəxsi problemidir. İnsanın şəxsi problemlərin bataqlığında boğulmasına biganə qalmaq istəməyənlər üçün bu, bir qədər qəribə səslənə bilər, belə ki, rasional düşüncə insanın yaşamaq hüququ olduğu kimi onun ölmək hüququnun mövcudluğunu da qəbul edir.

İntihar bütün xalqlarda və bəşəriyyətin bütün inkişaf dövrlərində müşahidə olunmuş hadisədir. Əhdi-ətiqə görə ilk homosidin (adamöldürmənin) müəllifi Qabil (Kabil) olmuşdur. İlk suisidin müəllifi isə tarixə məlum deyildir, lakin məlumdur ki, intihar hələ çox qədimlərdə, insanın "homo sapiens" mərhələsinə qədəm qoyduğu dövrlərdə də baş verirdi. İntiharın qədim tarixə malik olmasını Qobustandakı qayaüstü rəsmlər, Avstriyanın Ausburq yaşayış məntəqəsi yaxınlığında aşkar edilmiş arxeoloji tapıntılar əyani sübut edir.

İlk, yəni ən qədim, ibtidai mərhələdə intihar insanın çətin vəziyyətə düşdüyü, məsələn, qida tapmadığı zamanlarda baş verirdi və altruistik xarakter daşıyırdı. Beləliklə, ilk intihar insanın özünə

əl qaldırması şəklində deyil, öz istəyi ilə başqaları tərəfindən öldürülməsi şəklində meydana çıxmışdır. Bunu tarixi faktlar da təsdiq edir. İbtidai icma quruluşunda qıtlıq, quraqlıq, eləcə də təbii fəlakətlər zamanı təbiətin fövqəladə qüvvələrinə qurban vermə mərasimləri təşkil olunurdu. Məsələn, atəşpərəst əcdadlarımız elin gözəl qızlarını oda qurban verirdilər. Belə ki, ibtidai şüur hesab edirdi ki, bu yolla ilahi qüvvələr onları hər cür bəladan hifz edəcəkdir. Azərbaycan ərazisində intiharın totemləşməsi eramızdan altı min il əvvəl müşahidə olunurdu. Dəniz sahillərində yaşayan insanlar ildırımlara, şimşəklərə sitayiş zamanı özlərini hündür qayalardan dənizə atardılar, ovçuluq və balıqçılıqla məşğul olan qəbilələrdə isə sitayiş zamanı ekstaza düşmüş insanlar özlərini şaquli yerə basdırılmış daş ucluqlu nizələrə sancardılar. Qədim insanların ağır həyatı hətta elə səviyyəyə çatırdı ki, qıtlıq üzündən qəbilənin qoca üzvləri könüllü olaraq aclığa başlayır və bununla da qəbilənin sağ qalması üçün ən gərəkli və son addımlarını atırdılar. Qədim Avropada qotlarda belə bir adət vardı ki, qəbilənin aclıqdan məhv olmaq təhlükəsi yaranan kimi qocalar özlərini qayadan ataraq intihar edirdilər. Bu qaya qotlar tərəfindən "Nəsillərin qayası" adlandırılırdı. Bu cür mərasimlərdə intihar etmiş şəxslər qəhrəman səviyyəsinə qaldırılır, onların cənazəsinə xüsusi ehtiramla yanaşardılar.

Qeyd edək ki, intiharın formalaşmasının ilkin mərhələsini altruistik intihar, yəni kollektivin mənafeyi naminə olan intihar forması təşkil edirdisə, zamanla fərdin psixologiyasına cəmiyyət psixologiyasının, eyni zamanda sosial, ictimai, iqtisadi amillərin təsiri nəticəsində eqoistik intihar halları formalaşmağa və intihar hadisəsinin əsasını təşkil etməyə, yəni altruistik intiharı üstələyərək, çoxluq təşkil edən suisid hadisəsi olaraq önə çıxmağa başladı. Müxtəlif tarixi dövrlərdə bu və ya digər xalqların mentalitetinə uyğun olaraq intihar ya tamamilə pislənmiş, ya da əksinə olaraq şərəfli addım hesab edilmişdir. Hətta bu iki qiymətləndirməyə eyni xalqda və eyni dövrdə rast gəlmək mümkündür. Məsələn, antik Romada altruistik intihar müsbət qarşılandığı halda, eqoistik intihar (fərdiçiliyi və şəxsi mənafeyi ilə seçilən insanın intiharı) pislənilirdi. Ayrı-ayrı fərdlərin intiharı altruistik mahiyyət daşımadıqda və deməli ümumi işin xeyrinə olmadıqda bu intihar mənasız və neqativ addım kimi qiymətləndirilirdi. Təbii ki, bunun da tarixi formasiyalara uyğun olaraq əsas səbəbləri var idi (4, 12).

Digər azadlıqlar kimi insanın bu dünyanı öz istəyi ilə tərk etmək, bu dünyadan könüllü getmək, yəni, intihar etmək azadlığı da asan əldə edilməyib. Tarixdən məlumdur ki, intihara dinin mənfi münasibətinin əsasında dövlətin intihara ənənəvi tənqidi münasibəti formalaşmışdır Məsələn, Rusiyada intihara görə cinayət məsuliyyəti haqqında maddə digər Avropa ölkələrində olduğu kimi uzun dövr, 1917-ci ilə qədər qüvvədə qalmışdır. İngiltərədə isə intihara cəhdə görə cinayət işinin açılması 1961-ci ilə kimi qalmaqda idi. Fransa inqilabından sonra, ilk dəfə olaraq intihar hüquqi mənada cinayətlərin sırasından çıxarıldı. İndi dünyanın əksər ölkələrində intihar və intihara cəhdə görə suisidentin hüquqi məsuliyyət daşımadığı qəbul olunmuşdur (8, 36).

Zaman-zaman intihar mövzusuna bir çox cəhətlərdən yanaşılıb, onu bir çox aspektlərdən araşdırmışlar. Bir insanın intihara meylliliyi və bu meylin nəticəsi olaraq ortaya çıxan özünüöldürmə aktı ilk növbədə həmin insanın daxilində baş verən psixoloji halətləri, psixoloji böhranları, bir sözlə psixoloji amillə sıx bağlıdır. Belə ki, intihar dünyada ən çox yayılmış ölüm hadisələrindən biridir. Hər il dünya üzrə yarım milyondan çox insan intihar edir və statistik hesablamalara görə isə yaradıcı insanlar, xüsusilə də yazıçılar bu suisident qruplar arasında on səkkiz dəfə çoxluq təşkil edir. Suisident qruplar arasında yazıçıların bu cür çoxluq təşkil etməsi isə onların təxəyyülünün, fikir, ideya emalı qabiliyyətinin genişliyi, dolaşıq, bir-birini izləyən amansız fəlsəfi görüş və düşüncələrin fəlsəfi intihara yol açma meyli ilə izah olunur.

İntiharın psixoloji nəzəriyyəsi ilk dəfə olaraq XX əsrin əvvəllərində Z.Freyd tərəfindən verilmişdir. Bu nəzəriyyədə insanın özünə yönəlmiş təcavüzü (avtoaqressiya) əsas yer tutur. Amerika psixiatrı Menincer Freydin ideyaları əsasında belə qənaətə gəlmişdir ki, hər bir suisidin əsasında qarşılıqlı əlaqədə olan üç şüuraltı səbəb durur. Bunlardan birincisi intiqam-nifrət, ikincisi depressiya-ümidsizlik, üçüncüsü günah hissidir. Bu səbəblər də öz növbəsində uyğun olaraq müəyyən təcavüzkar meyllərin hesabına gerçəkləşir: öldürmək istəyi, ölmək istəyi, öldürülmək istəyi. Başqa sözlə, intiqam-nifrət hissi kiməsə öldürmək meylinə uyğun yaranır və bu aqressiv meyl

mühitin qadağalar məngənəsində avtoaqressiyaya çevrilərək, suisidə rəvac verir. Günah hissi və ümidsizlik isə birbaşa intihara aparan avtoaqressiv meyllərlə akkumulyasiya olunur (4, 39).

Məşhur fransız sosioloqu Emil Dyurkheym intihara bu cür tərif vermişdir: "İntihar insanın özünü bilavasitə və ya vasitəsiz zərərçəkən vəziyyətinə salmış və ölüm hadisəsinə gətirib çıxarmış elə müsbət və ya mənfi davranışın nəticəsidir ki, o bu addımın nəticəsini qabaqcadan bilmiş olsun." Amerika sosioloqu Moris Farber isə qeyd etmişdir ki, "intihar insanın öz həyatını şüurlu surətdə, bilərəkdən və yubandırmadan məhv etməsi deməkdir." (4, 34)

Statistika və ümumiyyətlə, müşahidələr göstərir ki, insanlar əsasən sosial-mənəvi və sosial-maddi səbəblər üzündən intihar edir. Bu səbəblər arasında konkret insan tərəfindən həlli müşkül hesab edilən, əslində isə problematikliyi şişirdilmiş əhəmiyyətsiz məsələlər (məsələn, uğursuz məhəbbət, ailədaxili münaqişə, maddi problemlər, kənardakılar tərəfindən təhqir olunma, yəni şəxsiyyətin alçaldılması və s.) çoxluq təşkil edir. Bu məsələlərin əhəmiyyətsizliyi onların "insan həyatı" adlanan dəyərlə nisbətdə nəzərdən keçirdiyimizdə müşahidə edilir. İnsanın həyatı bütün dəyərlər sistemində birinci yerdə durduğu üçün heç bir sosial problem insanın intiharına haqlı zəmin yarada bilməz. Bu halda praktiki həyatla bağlı olan və səhv addım hesab edilən bu cür intiharları şərti olaraq "güzəran intiharı" (şüursuz intihar), ondan yararlanan suisidenti isə "güzəran insanı" adlandırmaq olar. Güzəran intiharından özünün mücərrədliyi ilə seçilən digər intihar modeli öz mahiyyətində ontoloji (varlıq) və essensial (mahiyyət) arqumentləri birləşdirir və bu intiharı şərti olaraq, "fəlsəfi intihar" (şüurlu intihar), ondan yararlanan insanları isə "fəlsəfi insan" və ya "fəlsəfi suisident" adlandırmaq olar (7, 140). Qısacası, həyatdan hər hansı xırda, əhəmiyyətsiz, dözülə biləcək problemə görə qaçanlardan fərqli olaraq, fərdi-fəlsəfi prinsiplərə görə gedənlərin, yəni şüurlu şəkildə ölüm fəlsəfəsinə baş vuraraq, heçliyi seçənlərin suisidi təqdir olunmasa da, şüursuz şəkildə intihar edənlərin ölümü ilə nisbətdə mənalılıq qazanır və əgər fəlsəfi insan anlayışı müəyyən kateqoriyalara bölünməli olsaydı, o zaman ilk yeri yazıçılar tutardı. Səbəblər müxtəlifdir. Aclıq və ehtiyac, gələcəkdən qorxma, depressiya, yaradıcı krizis, böyük uğur və şöhrət əldə etdikdən sonra yaranan boşluq, xəstəlik, qocalıq... Ən əsası, yazıçılıq qorxulu peşə sayılır.

İntihar edən yazarların siyahısı çox böyükdür. İntihar edən yazarların hər biri şüurlu həyatlarının ölümə doğru irəlilədiyini anlasalar da ölümə doğru irəliləməkdən çəkinməyiblər. Paul Verlayn, Edqar Alan Po, Artur Rimbaud, Mayakovski, Cerard Nerval, Silvia Plat, Sergey Yesenin, Bəşir Fuad, Aleksandr Fadayev və indi adını unutduğum onlarla dahini xatırladıqca yaradıcı insanların həyatlarına son verməklərini başa düşməkdə məntiq çətinlik çəkir. Yaşamağa, həyata, sevgiyə bağlanmaq cəlbedici görünsə də, qələm adamları daha ağrılı və geri dönüşü olmayan yolu seçir.

İntihar mövzusu tarix boyunca filosofları və düşüncə adamlarını məşğul etmiş ciddi mövzulardan biridir. İntihar haqqında fikirlər dinə və mental dəyərlərə görə dəyişir. Bəzən utancverici və qəbuledilməz bir vəziyyət hesab olunsa da, bəzi mədəniyyətlərdə intihar çıxılmaz vəziyyətdən xilas olmağın ən qürurlu yoldur. Müasir tibb elmi intiharı insan psixologiyası və ruhi durumla bağlayır. Depressiv insanların intihara daha yaxın olmasını tibb elmi artıq sübut edib. Deməli, yaradıcılıq axtarışları ilə çabalayan və depressiyaya meyilli olan yaradıcı adamların intihar etməsi başa düşüləndir. Dünya şöhrətli filosoflar, Aristotel, Platon, Epikür və Kant intihara qarşı olsa da, Zenon və Nitşe intiharı müdafiə edir. Avtomobil qəzasında həyatını itirən böyük yazıçı və filosof Alber Kamyu intiharı fəlsəfi olaraq çözməyə çalışırdı. O düşünürdü ki, "yeganə fəlsəfi problem intihardır". Kamyu yazırdı: "Həyat, yaşamağa dəyməyəcək qədər mənasızdır, amma bununla belə yaşamaq lazımdır". Psixologiya elmi intihar səbəblərini müxtəlif cür araşdırır. İntihar səbəbləri kimi cinsiyyət, sosial-iqtisadi vəziyyətin ağırlığı, ata-ana münaqişələri, ixtilaf, immiqrasiya, psixi pozuntular, şiddətə meyllilik və düşüncə pozuntuları göstərilir. Psixoloqların qənaətinə görə intihar edən şəxslərin doxsan faizi depressiya xəstəsidir. Depressiyada olan kişilərin intihar nəticəsində həyatını itirmə nisbəti qadınlara görə daha yüksəkdir. Deməli, kişilər depressiyanı daha ağır yaşayır. Problemləri həll etmə bacarığının kifayətsizliyi, stress və ümidsizlik hissləri ilə intiharın yaxın əlaqəsi olduğu göstərilir. Öz gücünə uyğun olmayan məqsədlərlə yaşamaq, müvəffəqiyyət qazana bilmədiyində tənqidə məruz qalmağa tab gətirə bilməmək kimi səbəblər insanları intihar cəhdlərinə yönəltməkdədir.

Hər intihar edən yazıçının da məhz ədəbiyyatla ciddi məşğul olduğunu birmənalı olaraq söyləmək də düzgün olmaz. Yəni, sənətkarın intihar etməsi onun həqiqiliyinin göstəricisi deyil. Bu mövzuda Qriqoriy Çxartişvilinin (Boris Akunin) “Yazıçı və intihar” adlı əsəri var. Həmin əsərdə müəllif yazıçı intiharlarını dövrlərə, coğrafi məkanlara, dinlərə, mentalitetə, səbəblərə uyğun olaraq təsnifatlandırıb. Sənət dünyasında (xalqa və xalqın sayına görə müəyyən etsək) ən çox intihar edənlər yəhudilərin payına düşür. Və əgər hər hansı bir ədəbiyyat intihar edən yazıçılarının say çoxluğu ilə öyünməli olsaydı, o zaman əminəm ki, dünya tarixində əhəmiyyətli yer tutan iki böyük ədəbiyyat, yapon ədəbiyyatı və amerika ədəbiyyatı bu sıralarda xüsusilə fərqlənərdi.

İntihar ədəbiyyatda çox işlənmiş mövzudur. Rüneskedən tutmuş Selincerə, Tolstoydan, Dostoyevskidən tutmuş Andre Moruaya, Heminqueyə qədər bir çox məşhur və qeyri-məşhur yazıçılar intihar mövzusunu öz əsərlərində istifadə edərək bədii həllini yaradıblar. Bəziləri açıq şəkildə bu mövzunu işləyiblər, bəziləri isə örtülü şəkildə. İntihar o demək deyil ki, mütləq özünü asmalısan, zəhər içməlisən, özünü qatarın altına atmalısan, tapançanı ağzına soxub, yaxud gicgahına dirəyib atəş açmalısan. Xeyr. Anna Karenina özünü qatarın altına atdı. Bu açıq intihar idi. Qraf Vronski isə məhz ölmək üçün müharibəyə getdi. Bu isə örtülü intihar idi. İntihar etmiş yazıçıların siyahısı, onların intihar səbəbləri və s. kimi məsələlərə keçməzdən öncə müasir ədəbiyyatın ən çox oxunan müəlliflərindən olan fransız yazıçısı Martin Pajın intihar mövzusunda qələmə alınmış “Mən necə idiot oldum” əsərində qoyulmuş əsas problemə, “intiharın insana azadlıq bəxş etməsi” məsələsinə toxunmamaq olmaz. Çünki bu əsər sadəcə dövrünün ən oxunaqlı fəlsəfi romanı olmaqla qalmır, o eyni zamanda da intihardan qaçmış, ona qarşı çıxmış, həyat eşqi və həyatın gözəlliyi ideyalarını təbliğ edən və yaxud da ən başından ölümə vurğun olan hər bir yazıçının ölümdən sonrakı etirafıdır.

Belə ki, əsərin qəhrəmanı Antuan intihar etmək qərarına gəlir. Antuanın heyran olduğu böyük şəxsiyyətlər ölüm saatlarını müəyyən etmək üçün özlərində güc tapmışdılar. Antuan düşünür: "Əgər həyat başdan-başa işgəncəyə çevrilibsə, başqa nə etmək olar?"

Antuan insanlara intihar etmək üçün yardım edən cəmiyyətə müraciət edir və cəmiyyətin yerləşdiyi binaya gedir. Pajın təsviri ilə desək, burada otuza qədər adam toplaşmışdı. Bəziləri oturub nəsə oxuyur, bəziləri sadəcə gözləyir, qalanları isə kiçik qruplara bölünərək qızğın söhbət edirdilər. Kvartet Şuberti ifa edirdi... Burada kişilər, qadınlar, cavanlar, qocalar, bir sözlə, cəmiyyətin bütün təbəqə və zümrələrindən insanlar vardı. Onlar çox sakit idilər. Çantalarını eşələyir, mübahisə edir, bir-birlərinə kağız-kuğuz verirdilər. Əksəriyyətinin bloknotu, ya da dəftəri vardı. Onlar qələmlərini hazır tutub mühazirənin başlanmasını gözləyir, pıçıldaşaraq xısın-xısın gülürdülər. Dörd divarın hamısına məşhur intihar edənlərin portretləri və fotoşəkilləri vurulmuşdu. Jerar de Neval, Merlin Monro, Jil Delez, Stefan Sveyq, Misima, Romen Hari...

Daha sonra dinləyicilərə professor Edmonun özünü öldürməsi haqqında məlumat verilir – “Xanımlar və cənablar, hər şeydən öncə icazə verin, sizə artıq bir çoxunuzun xəbəri olsa da professor Edmonun özünü uğurla öldürməsi haqqında məlumat vermək istəyirəm. O bunu etdi!

Madam Astanaviç pultu götürüb ağ taxta paneldən olan divara tuşladı. Divarda mehmanxana nömrəsində ilgəkdən asılmış kişi şəkli göründü. Onun damarları da kəsilmişdi və qəhvəyi rəngli qan palazın üzərinə iki böyük və qara ləkə salmışdı. Meyitin şəkli çəkilərkən, çox güman ki, yellənirmiş, ona görə də, üzü o qədər də yaxşı düşməmişdi. Antuanı əhatə edən camaat çəpik çaldı...

- O bunu etdi. Və gördüyünüz kimi, yəqinlik hasil etmək və kəndirin qırılması ehtimalını sığortalamaq üçün damarlarını kəsmişdir. Hesab edirəm ki, bu hərəkət əlavə alqışa layiqdir...

-Adamlar yenidən çəpik çalırlar. Antuan isə insan ölümünün gurultulu alqışlarla qarşılanmasını təəccüblə izləyir. Sonra mühazirəçi Antuanı adamlara təqdim edir:

-Bu gün daha bir qardaşımız bizə qoşulacaq. Xahiş edirəm, özünüzü təqdim edin. Hamı Antuana tərəf döndü. Bu qədər insanın qarşısında çıxış edəcəyindən ürkən Antuan dərhal ayağa qalxdı və rəğbətli baxışları görüb, auditoriyanın susqun dəstəyini hiss etdi.

- Mənim adım Antuandı, mənim iyirmi beş yaşım var.

- Salam Antuan! - onu xorla salamladılar.

- Antuan, səni bura nəyin gətirdiyini bizə danışa bilərsən?

- Mənim həyatım dəhşətli dərəcədə alınmadı. Ancaq ən dəhşətlisi bu deyil. Ən dəhşətlisi

odur ki, mən başa düşürəm ki...

- Ona görə də, sən həyatla haqq-hesabı üzüb, yoxluğa qovuşmağa qərar verdin.

- Ümumiyyətlə, deyəsən, mən həyat üçün yararsızam və ölümdə özümü təsdiq edə bilərəm. Yəqin ki, buna daha çox uyğun gəlirəm.

- Əminəm ki, Antuan, səndən həqiqətən də dahi bir mərhum çıxacaq. Mən də elə sənə, bizə çox az şey verən və çox şeylər alan həyatdan necə qurtulmağı öyrətmək üçün burdayam... (9, 75)

Belə ki, romanı oxuduqca anlayırsan ki, bütün güclərini birləşdirərək onlara qoşulan hər növbəti üzvün cəsarətlənməsinə, öz azadlığını, yəni ölümünü tapmasına səfərbər edən cəmiyyət əslində müəllifin vəziyyətindən, zamanından və yerindən aslı olmayaraq intihar etmə və azad olma hisslərini içində boğan və bütün ömrü boyu ölümündən daha çətin və əzablı həyatı yaşamağa məhkum olan insanlara qarşı duran, onları qınayan real cəmiyyətə qarşı silahıdır. Professorun intiharla bağlı fikirləri də onu göstərir ki, bu cəmiyyətin istədiyi tək bir şey var, o da özlərinə məxsus olan həyata, zamana onların ziddinə işlədiyi zaman, xoşbəxtlik gətirməkdənsə əbədi əziyyət gətirdiyi zaman son qoya bilmək istəyidir.

Ümiddən məhrum olmaq insan bədbəxtliyinin son həddidir. Remark deyirdi ki, insan yalnız intihardan əvvəl tənha olur. İnsanın şüursuz məxluqdan üstünlüyü odur ki, o hər cür bədbəxtlikdən xilas olmaqdan ötrü vasitə bilir. Bu vasitənin adı intihardı. İntihar etmək çətindir, amma yaşamaq ondan da çətindir.

Belə ki, romanda professorun dilindən səslənən, - "Mənim nəzəriyyəm ondan ibarətdir ki, həyat bizdən hər şey almamış ondan qurtulmaq lazımdı. Ölüm üçün silah-sursat, barıt, güc olmalıdır, yoxsa bu bədbəxt və əsəbi qocalar kimi tamamilə aciz və əldən düşmüş halda ölmək nəyə lazımdır... İntihar pislənilir. Dövlət, din, cəmiyyət, hətta təbiət özü ona qarşıdı, çünki təbiət adlandırdığımız nazənin gözəl özünə qarşı azad münasibəti qətiyyən qəbul etmir, bizi sonadək öz hakimiyyəti altında saxlamaq yanğısıyla alışıb-yanır, bizim əvəzimizə özü qərar qəbul etmək istəyir. İnsanın nə vaxt öləcəyinə kim qərar verir? Biz qərar verməyi xəstəliklərə, qəzalara, canilərə həvalə edərək yüksək azadlığımızdan imtina etmişik. İnsanlar bunu ya tale, ya da qəzavü-qədər adlandırırlar. Yalandır! Bu, qəzavü-qədər deyil, bizi gözlərini döyə-döyə zəhərləyən, müharibələrdə və qəzalarda məhv edən cəmiyyətin gizli iradəsidi... Bizim nə vaxt öləcəyimizə cəmiyyət qərar verir. Çünki yediyimiz ərzağın kefiyyəti, ətraf mühitin durumu, işlədiyimiz və yaşadığımız şərait ondan asılıdı. Doğulanda bunu istəyib-istəmədiyimizi heç kəs bizdən soruşmur, dilimizi, ölkəmizi, dövrümüzü, ehtiraslarımızı və zövqümüzü, həyatımızı belə özümüz seçmirik. Bizim azadlığımız yalnız ölümdədi. Azad olmaq ölmək deməkdir... Ancaq bütün bunlar sözdür. Həqiqət isə... Gəlin, dürüst olaq. Əgər biz sağlam, layiq olduğumuz tək sevimli, hörmətli olsaydıq və günəşin altında öz layiqli yerimizi tutsaydıq, əminəm ki, indi bu zal bomboş olardı." (9, 89) ifadələri bütün açıqlığı ilə müəllifin əziyyətlərdən, iztirablardan qurtulmaq üçün ölümü qucaqlayan insanların intihar arzusuna hörmət, onların özünü əziyyətdən, yəni həyatdan məhrum edərək, azadlığa, yəni ölümə qovuşmaq hüququnun varlığına cəmiyyəti inandırmaq üçün bir cəhd, bəzilərinə görə intihar günah belə olsa bu günaha bəraət qazandırmaq istəyi idi. Və demək ki, Paj bu cəsarətli addımı ilə bir zamanlar cəmiyyətin ən vacib simalarından olan və ölümü, daha doğrusu intiharı ilə dillərə düşən, bəzənsə də qınanan qələm dostlarına dəstək olmaqda idi, ən əsası isə bir çox filosofların, bəzənsə də sadə adamların cavabsız olduğunu iddia etdiyi o məşhur "niyə?"-ləri cavablandırmaqda idi.

Beləliklə, fəlsəfi intihar insanın bütövlükdə dünyanın gərdişinə, lokal mənada isə öz həyatının oriyentirləri ilə yaşamağına etiraz etməsi fonunda baş verən intihardır. Onu da qeyd edək ki, fəlsəfi intiharın qurbanları mücərrəd suisidentlər deyil, statistik çəkisi olan insanlardır. Bu barədə müasir rus suisidoloqu İ.Krasnenkova qeyd edir: "İntihar hallarının 17-20 %-ni psixi xəstələr təşkil etdiyi halda, özünə əl qaldıranların böyük əksəriyyəti heç bir psixopatiya ilə əlaqəsi olmayan, şəxsi həyatını ciddi, problemsiz yaşayan, neqativ meylləri olmayan, lakin bununla belə illərlə həyatdan getmək fikrini özlərində gəzdirən və planlaşdırdıqları bir gün intihara baş vuran insanlardır." (4, 56)

Beləliklə, fəlsəfi intihar mövcuddur və həm də o, intiharın fəlsəfi-etik aspektinin predmeti kimi mövcuddur. Fəlsəfi intihar həyatın mənası kimi etik problem ilə əlaqədardır. Buna görə də insan həyatının mənası və bunun intiharla əlaqəsi haqqında fikir və konsepsiyaları nəzərdən

keçirmək çox önəmlidir.

Öncəliklə, qeyd edək ki, həyatın mənası məsələsini bəzi mütəfəkkirlər səhvən psixi xəstələrin yaşadığı problem hesab edirdilər. V.Frankl Freydin "əgər bir kimsə həyatın mənası və ya həyatın dəyərliliyi haqqında sual verirsə, deməli, o, xəstədir" fikri ilə razılaşmayaraq qeyd edir ki, həyatın mənasızlığı haqqında düşüncələr hansısa patoloji fenomenin ifadəsi deyil. Həyatın mənasızlığından doğan daxili boşluğu Frankl "ekzistensial vakuum" adlandırır. Ekzistensial vakuum həyatda məqsədinin nə olduğunu bilməyən insanların keçirdiyi hisslərdir. Təbii instinktlərin insana nə etməli olduğunu deyə bilmədiyi zaman ekzistensial vakuum insanı haqlayır.

Həyatın mənası amili fəlsəfi intihar üçün çox vacib amildir. Həyatın mənası haqqında düşüncələr hələ dünyagörüşün aşağı forması olan mifologiyada öz əksini tapmışdır. Bir qədər sonra, dini təsəvvürlərin formalaşması ilə həyatın mənası problemi qabarıq şəkil alır. Yeklesiastın kitabında "hər şey fanidir" qənaətinə gələn çarın həyatın mənası haqqında fikirləri olduqca maraqlıdır: insanın gördüyü işlərinin ona nə xeyri? Ürəyimə dedim ki, şənlən və xeyirdən həzz al. Lakin bu da fanidir! Və həyata nifrət etdim, çünki günəşin altında görülən bütün işlər mənə iyrənc göründü; belə ki, hər şey fanidir!

Şopenhauer hesab edirdi ki, dünyanın varlığı prinsipinin əsasları yoxdur, bu varlığın məqsədi mövcud deyil, dünya kor iradədir və bu iradə həyata yönəlmişdir: "Əgər həyat özlüyündə nə isə xeyirli bir şey olsa idi, onda niyə onun çıxış qapılarını ölüm və ölümün dəhşətləri kimi qorxunc keşikçilər qoruyur? Ölüm belə qorxulu olmasaydı kim həyatda qalmaq istəyərdi? Və həyat xoşbəxtlik demək olmasaydı, kim ölüm haqqında düşüncələri həzm edə bilərdi? İndi ölümün yaxşı tərəfi də var, çünki o, həyatın sonudur. Həyatın əzablarında özümüzü ölümlə, ölümdə isə həyatın iztirablarını toxtayırıq. Həqiqət isə belədir; həyat da, ölüm də bir ayrılmaz tam, eyni aldanmaların labirintidir. Bu labirintdən çıxmaq arzu olunduğu qədər çətindir." (3, 113)

Beləliklə, həyatın mənası haqqında düşüncələrin səbəbi insanın bir ekzistensial varlıq kimi mənəvi dünyasının tamamilə təmin edilməməsidir. Həyatın mənası haqqında sualların meydana çıxmasının səbəblərindən başlıcası insan mahiyyətinin mənəvi ehtiyaclarının mütləq mənada təmin olunmazlığı, ikincisi isə həyati dəyərlər sisteminin özünü doğrultmamasıdır. Məlumdur ki, A.Kamyu intiharı fəlsəfənin əsas problemi elan edərək fəlsəfənin əsas məsələsini bu cür qoymuşdur: "Həyat onu yaşamağa dəyərmi? Bu suala cavab vermək fəlsəfənin fundamental məsələsini həll etmək deməkdir". İntiharı sosial fenomen kimi deyil, təfəkkürlə əlaqədə təhlil edən fransız ekzistensialisti qeyd edir ki, intihar etmək həyatın mənasız olmasını, yaşamağa dəymədiyini, gündəlik həyatın illüzorluğunu etiraf etmək deməkdir. Belə ki, Kamyunun fəlsəfi təhlilinin əsasını təşkil edən "absurd" anlayışı onun intiharla bağlı fikirlərində də özünü göstərir. Kamyuya görə, absurd hissi insan və onun həyatı arasındakı uçurumdur, mövcud olmaq absurddur, özü də absurdluq insanda və ya dünyada deyil, onların birgə mövcudluğundadır. Lakin filosofun fikrincə, yaşamağın absurdluğu intihar etməyə əsas vermir, baxmayaraq ki, ölməklə insan özünü mövcudluğun absurdluğundan qurtarmış olur (5, 7). Həyatın mənası haqqında yazan digər dahi yazıçı L.Tolstoy Şopenhauerin həyat fəlsəfəsi ilə tanışlıqdan sonra qeyd edirdi: "Bu gün olmasa da, sabah xəstəliklər, ölümlü sevimli adamların üzərinə, mənim üzərimə gələcək və bizdən yalnız çürüntü və qurdlar qalacaqdır." (4, 61) Yaradıcılığının əsas mövzusu insan psixologiyasında olan konfliktlər və insan mənəviyyatı olan, o cümlədən çəkinmədən öz psixi dəyişkənliyini də bütünlüklə yaradıcılığında əks etdirən intihar etmiş məşhur yapon yazıçısı Rüneske Akutaqava isə yazılarından birində belə bir ifadə işlədir: "Bu cür mənəvi böhran içərisində yaşamaq işgəncədir. Yəni bir adam tapılmayacaq ki, elə yuxuda ikən məni boğsun?!" (2, 29) Fəlsəfi insanlar arasında elələrini də tapmaq olar ki, onlar ömürlərinin sonunadək intihar etmirlər, bununla belə həyatın heçliyi və bundan doğan tragizmi hərfi mənada başa düşülməyən intiharla eyniləşdirirlər. Məsələn, H.Hesse "Yalquzaq" romanında intiharın bu formasını belə açıqlayır: "yalnız gerçəkdən canına qəsd edənlərə özünü öldürənlər demək düzgün deyil." Yuxarıda deyilənlərdən belə nəticə çıxarmaq olar ki, fəlsəfi insan intiharın çıxış yolu olması ilə bağlı tərəddüd keçirə, Kamyunun absurd insanının vəziyyətinə düşə bilər və yaxud intiharla bağlı planlarını naməlum müddətə təxirə sala bilər. Bu tip insanların fəlsəfi-suisidoloji strategiyası həyatda "ləngiməklə" onun boşluğu, puçluğu haqqında subyektiv dəlilləri bir daha saf-çürük etməyi nəzərdə tutur. Belə suisidentlər sanki "özünü

öldürmək üçün yaşamaq lazımdır" prinsipi ilə hərəkət edirlər.
İntihar etmiş və nəinki ölümü, hətta yaradıcılığı ilə yaddaşlarda qalan, özündən olanlar üçün normal, cəmiyyət üçün isə Tanrının onlara bəxş etdiyi fövqəladə anomaliya olan yazıçılar cərgəsinə yapon ədəbiyyatının "ölümə vurğun iblis"-i Yukio Misima da daxildir. O, 1948-ci ildə yazırdı: "İçimdə oyanan və mənə rahatlıq verməyən bir istəyi-qatil olmaq istəyini boğa bilmirəm. Al qırmızı qan görmək üçün dəhşətli dərəcədə susamışam. Təəccüblü deyil ki, qadınların sevmədiyi kişilər həmişə məhəbbətdən yazarlar. Mən isə kimisə öldürüb ölüm hökmü qazanmamaq naminə bu əsərləri yazmağa məcburam." (2, 10) Misimanın yaratdığı qatil obrazlarına yanaşması isə xüsusilə diqqət çəkir: "O, başqalarını qətlə yetirə-yetirə özünü də ölümə yaxınlaşdıraraq yaşayırdı". Onu da deyirdi ki, "qatili başa düşən olmadıqda o ölür." Yəni, qətl Misima üçün qurtuluş yox, ölümün cazibə dairəsinə daha çox yaxınlaşmaq deməkdir. Bəzilərinə görə qatil olmaq istəyən, amma öldürmək ehtirasını yazı ilə boğan Misima fikrimcə sadəcə ölümə çox aşiq idi. O, əslində ölməyin, ölümün, nəfəs və cansızlığın nə demək olduğunu dərk eləməyə çalışırdı və yaratdığı hər qatilin əli ilə başqalarının qanını tökən Misima üçün bu zaman kəsiyi nə zamansa cəsarətini toplayıb özünü təslim edəcəyi qatili tanımaq müddəti idi. "Belə yazıçılar bizdə iki, hətta üç əsrdən bir dünyaya gəlir" fikrini Yukio Misima haqqında deyən məşhur yapon yazıçısı Yasunari Kavabata, bütün qadınlar kimi müəmmalı və dumanlı aləmə sahib olan, xarakterinin ikili xüsusiyyətləri, poeziyasının intimliyi ilə seçilən və nəhayət, "Mən özüm insan olmayanların cərgəsini seçmişəm, nə edim ki... Özümü çox pis hiss edirəm, tənhayam, əsl dostlarım yoxdur" ifadələri ilə mənəvi ölümünü təsvir edən rus ədəbiyyatının tanınan simalarından biri olan Marina Svetayeva, "Allah bizə daşdan ağır ruh verib", deyən İsveçrə şairəsi Karin Boye, çox fərqli intihar növü seçən ingilis yazıçısı Virciniya Vulf, XX əsr amerika poeziyasının ən qalmaqallı və ən qəribə fiqurlarından biri olan Silvia Plat, E. Hemenquey, Cek London, Stevan Sveyq, Mayakovski, Maykl Doris, Harri Kodil, Nil Kassidi və b. öz ölümünü vaxtından tez gətirmiş, suisidi ilə intihar etmiş yazıçılar halqasına qoşulan fəlsəfi insanlardandır. Beləliklə, cəm halında yaşayan kəslərin bir-birinə özgələşməsi nəticəsində tənhalığın, nihilizmin pəncəsinə düşən bu insanlar ardı-arası kəsilməyən dolaşıq, qarışıq fikir və düşüncələrdən, mənbəyi məlum olmayan can sıxıntısı və əbədi mənəvi-ruhi tənhalığın gətirdiyi iztirablardan qurtulmaq üçün yeganə çıxış yolunu özünəqəsddə görür. Və onlar arasında bəziləri yalnız ruhən ölməyi bacarsalar da, bəziləri özlərindəki yüksək cəsarət hissindən yararlanaraq həm ruhən, həm də cismən ölməyi bacarırlar.

## Ədəbiyyat


1. Ağaoğlu E. Ölümə doğru yol // "Avrasiya" qəzeti, 1997, 23-26 oktyabr.
2. Cabbarlı N. Ədəbiyyatdan intihara. Bakı: "VEKTOR" nəşrlər evi, 2006, 195 s.
3. Hacıyev Z. Fəlsəfə. Ali məktəblər üçün dərslik. Bakı: "Turan" nəşriyyatı, 2012, 485 s.
4. Hüseynov A. İntihar (Suisid). Bakı: "Adiloğlu" nəşriyyatı, 2001, 115 s.
5. Kamyu A. Absurd və intihar. // "Ədalət" qəzeti, 2018, 6 iyun.
6. Г.Чхартишвили. Писатель и самоубийство. М., Новое литературное обозрение, 2000,576 с.
7. Мартыненко А. В. Суицид в молодежной среде. // Знание. Понимание. Умение, 2005, No 1, с. 139-141.
8. Özünəqəsdin sosial-psixoloji amilləri. Bakı: "Elm və təhsil", 2013, 48 s.
9. Paj M. Mən necə idiot oldum. Bakı: "Qanun" nəşriyyatı, 2013, 136 s.


**L. Gurbanova**

## Writers in the labyrinth of the suicide

## Summary

Suicide - a conscious, deliberate and rapid deprivation of life oneself. Mental disorders, including depression, bipolar disorder, schizophrenia, personality disorders and substance abuse—including alcoholism and the use of benzodiazepines—are risk factors. Some suicides are impulsive

acts due to stress, such as from financial difficulties, troubles with relationships, or bullying. Those who have previously attempted suicide are at a higher risk for future attempts. Suicide is a sociological, biological, psychological and philosophical phenomenon, but also is a literary phenomenon based on artistic thought. Suicide is one of the main themes of literature from ancient times to the present day. Studies show that writers are twice as likely to commit suicide than other people. Although the correlation between creativity and mental illnesses is open to discussion, there is no doubt that the literary world has suffered many losses, as many geniuses have had troubles making peace with life. It is not by chance that among those who commit suicide there are many writers, for example, Jack London, S. Yesenin, Yukio Mishima, Marina Svetaeva, one of the most recognizable figures in russian literature, the swiss poet Karin Boye, english writer Virginia Wulff, who chooses a very different suicide method, Silvia Plat, one of the most scandalous and most strange figures of the 20th century american poetry, E.Hemingway, Stevan Sveyq, Mayakovsky, Michael Doris, Harry Kodil, Nil Cassidy and others. Thus, suicide is, above all, a product of artistic philosophical thought.

**Key Words:** suicide and writers**,** the philosophical suicide**,** absurd and death

**Л. Гурбанова**

**Писатели в лабиринте самоубийства**

**Резюме**

Самоубийство - это сознательное, намеренное и быстрое лишение себя жизни. Психические расстройства, включая депрессию, биполярное расстройство, шизофрению, расстройства личности и злоупотребление психоактивными веществами, в том числе алкоголизм и использование бензодиазепинов, являются факторами риска. Некоторые самоубийства являются импульсивными действиями из-за стресса, например, из-за финансовых трудностей, проблем с отношениями или издевательств. Те, кто ранее пытался покончить с собой, подвергаются большему риску будущих попыток.Суицидальное - это социологическое, биологическое, психологическое и философское явление, но и литературное явление, основанное на художественной мысли. Самоубийство одна из основных тем литературы с древнейших времен до наших дней.Исследования показывают, что авторы в два раза чаще совершают самоубийства, чем другие люди. Хотя взаимосвязь между творчеством и психическими заболеваниями открыта для обсуждения, нет никаких сомнений в том, что литературный мир понес много потерь, поскольку многие гении испытывали проблемы с миром с жизнью. Не случайно, что среди те, кто совершает самоубийство есть много писателей, например, Джек Лондон, С. Есенин, Юкио Мисима, Марина Светаева, одна из самых узнаваемых фигур в русской литературе, швейцарский поэт Карин Бойе, английская писательница Вирджиния Вульф, одна из самых скандальных и самых странных фигур американской поэзии 20-го века Сильвия Плат, Э.Хемингуэй, Джек Лондон, Стеван Свейк, Маяковский, Майкл Дорис, Гарри Кодил, Нил Кассиди и другие. Таким образом, самоубийство - это, прежде всего, продукт художественной философской мысли.

**Ключевые слова:** самоубийства и писатели, философское самоубийство, абсурд и смерть.

Redaksiyaya daxil olma tarixi: 01.04.2019
Çapa qəbul olunma tarixi: 03.05.2019
Filologiya elmləri doktoru, professor Cəlil Nağıyev ərəfindən çapa tövsiyə olunmuşdur.